## MƏRUZƏ VƏ ÇIXIŞLARI

### BDU-da "Yaşıl kitabxanalar" mövzusunda elmi seminar

Bakı Dövlət Universitetinin (BDU) İnformasiya və sənəd menecmenti fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılov "Yaşıl kitabxanalar" mövzusunda məruzə edib.

Məruzədə Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Sərəncamının tarixi əhəmiyyəti diqqətə çatdırılıb, bu istiqamətdə qarşıda duran vəzifələrdən bəhs olunub. "Yaşıl dünya naminə həmrəylik ili"ndə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsinin ölkəmizə olan böyük inam və etimadın yüksək göstəricisi olduğu vurğulanıb.

Məruzədə yaşıl kitabxana anlayışı izah edilib, bu konsepsiyasının kitabxana-informasiya fəaliyyətində yeni bir istiqamət olduğu qeyd olunub. Yaşıl kitabxanaların missiyası, arxitekturası və funksiyaları müasir elmmetrik səviyyədə təqdim olunub. Dünyanın müxtəlif ölkələrində yaşıl kitabxana hərəkatının yaranması və inkişaf mərhələləri, bu tipli kitabxanaların standartlaşması, brendləşdirilməsi və sertifikasiyası məsələləri, beynəlxalq təşkilatların yaşıl kitabxana hərəkatına dəstəyi şərh olunub. Bildirilib ki, yaşıl kitabxana modelinin həyata keçirilməsi zamanı ekoloji, iqtisadi və sosial davamlılıq nəzərə alınmalı, kitabxana binasının təbiətlə harmoniyası təmin edilməli, enerjiyə və digər resurslara qənaət etməklə ətraf mühitə və insan sağlamlığına töhfə verəcək infrastruktur formalaşdırılmalıdır.

Ölkəmizin bu istiqamətdə mövcud resurslarından, imkanlarından və həmçinin potensialından bəhs edən məruzəçi xüsusilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda kitabxana infrastrukturunun bərpası layihələrində yaşıl kitabxana modelindən istifadənin zəruriliyini vurğulayıb.

Elmi seminar iştirakçıların böyük marağına səbəb olub, məruzə ətrafında geniş müzakirələr aparılıb[1].

[1] http://bsu.edu.az/az/news/bduda_yal_kitabxanalar_mvzusunda_elmi_seminar

## BDU-da professor Əziz Əliyevə həsr olunmuş elmi seminar keçirilib

Bakı Dövlət Universitetinin (BDU) Kitabxanaçılıq-informasiya fakültəsinin və Respublika Dövlət Elmi Tibb Kitabxanasının birgə təşkilatçılığı ilə professor Əziz Əliyevin anadan olmasının 125 illiyinə həsr olunmuş elmi seminar keçirilib.

Elmi seminarı giriş sözü ilə açan BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov Əziz Əliyevin görkəmli dövlət xadimi, ölkəmizdə səhiyyə işinin təşkilatçısı, eyni zamanda yüksək erudisiyaya malik alim kimi fəaliyyətindən bəhs edib. Professor Əziz Əliyevin irsinin öyrənilməsinin və gənc nəslə təbliğinin xüsusi önəm kəsb etdiyini vurğulayan Mais Süleymanov elmi seminarda müzakirə edilən mövzuların aktuallığını diqqətə çatdıraraq tədbirin işinə uğurlar arzulayıb.

Elmi seminarda BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müdiri Nadir İsmayılov "Əziz Əliyev irsinə dair sənəd axınının tədqiqi", Respublika Dövlət Elmi Tibb Kitabxanasının direktoru Yeganə Pirəliyeva "Əziz Əliyev Azərbaycanda tibb elmi və təhsilinin informasiya fəaliyyətinin təşkilatçısı kimi" mövzularında məruzə ediblər.

Nadir İsmayılov Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Əziz Əliyevin irsinə, şəxsiyyətinə böyük dəyər verdiyini vurğulayıb, alimin yubileylərinin dövlət səviyyəsində qeyd edildiyini diqqətə çatdırıb. Məruzədə Əziz Əliyev irsi haqqında ölkəmizdə və xaricdə sənəd-informasiya axınının təşəkkülü, inkişafı və müasir vəziyyəti kompleks təhlil olunub, mövzunun informasiya təminatının təkmilləşdirilməsi ilə bağlı innovativ təkliflər irəli sürülüb. Əziz Əliyev irsinə dair sənəd axınının tədqiqində Milli Kitabxana tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası ilə nəşr edilmiş "Əziz Əliyev" biblioqrafik göstəricisinin xüsusi əhəmiyyət daşıdığını bildirən məruzəçi biblioqrafiyada alimin əsərləri, həyat və yaradıcılığına dair mühüm faktların əksini tapdığını qeyd edib. Məruzədə Əziz Əliyev irsinə dair çap edilmiş əsərlər ədəbiyyat növlərinə və müəlliflərin əlifba göstəricisinə görə təsnifləndirilib, bir sıra müqayisəli təhlillər aparılıb.

Respublika Dövlət Elmi Tibb Kitabxanasının direktoru Yeganə Pirəliyeva məruzəsində Əziz Əliyevin tibb elmi və təhsilinin informasiya təminatındakı fəaliyyətindən bəhs edib, alimin Azərbaycan Tibb Universiteti nəzdində hazırda 1 milyon kitab fonduna malik Tibb Kitabxanasının əsasını qoyduğunu bildirib. Qeyd edib ki, Əziz Əliyev Azərbaycan Tibb Universitetində xüsusi Kitabxana Komissiyası yaradıb, tibbi kitabxananın fondunun zənginləşməsinə, digər respublikalarla kitab mübadiləsinin aparılmasına mühüm töhfələr verib. Yeganə Pirəliyeva Əziz Əliyevin təşəbbüsü ilə ölkədə elmi-tibbi ədəbiyyatın, eləcə də bu sahə üzrə dövri nəşrlərin çapını həyata keçirən "Tibb nəşriyyatı"nın, "Praktiki və nəzəri tibb jurnalı"nın, hazırda "Təbib" adı ilə fəaliyyətini davam etdirən "Tibb kadrları uğrunda" qəzetinin yaradıldığını diqqətə çatdırıb. Məruzəçi alimin bu istiqamətdəki fəaliyyətinin ölkəmizdə tibb elmi və təhsilinin informasiya təminatının formalaşmasında xüsusi rolunu vurğulayıb.

Məruzələr auditoriya tərəfindən böyük maraqla dinlənilib, mövzularla bağlı müzakirələr aparılıb.[2]

---

[2] http://bsu.edu.az/az/news/bduda_professor_ziz_liyev_hsr_olunmu_elmi_seminar_keirilib

**BDU-da elmi seminar: "Qərbi Azərbaycanın tarixi arxiv sənədlərində"**

Bakı Dövlət Universitetinin (BDU) İnformasiya və sənəd menecmenti fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə "Qərbi Azərbaycanın tarixi arxiv sənədlərində" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılov mövzu ilə bağlı məruzə edib. Nadir İsmayılov bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsindən sonra Qarabağa və Şərqi Zəngəzura böyük qayıdış başlayıb. O vurğulayıb ki, bütün bunlar tarixi torpaqlarımız olan Qərbi Azərbaycana qayıdışı da şərtləndirir. Ona görə də bu mövzuda daha geniş araşdırmalar aparılmalı, elmi-tədqiqat işləri yazılmalıdır.

Məruzəçi bildirib ki, mövzunun öyrənilməsində müxtəlif qaynaqlardan, o cümlədən, yerli, türk, rus, gürcü qaynaqlarından istifadə olunub. Tədqiqatda tarixən Azərbaycan türklərinin yaşadığı Qərbi Azərbaycanın mahalları, həmçinin İrəvan xanlığı haqqında mövcud mənbələr diqqətə çatdırılıb, bölgənin tarixi, ərazisi, əhalisi, etnoqrafiyası, mədəniyyət abidələri ilə bağlı arxiv sənədləri, kitablar, qəzet və jurnal materialları, məcmuələr, həmçinin internet resursları təqdim olunub. Məruzədə məşhur Şərq və Avropa səyyahlarının, tarixçilərinin əsərlərindən sitatlar verilib, tarixi faktlar, Qərbi Azərbaycana aid xəritələr nümayiş etdirilib. Tədqiqatda soydaşlarımızın Qərbi Azərbaycandan dəfələrlə deportasiya edilməsi də arxiv sənədləri ilə şərh olunub.

Məruzəçi çıxışını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə səsləndirdiyi fikirlərlə yekunlaşdırıb: "Bir daha onu da bildirməliyəm ki, bu yer icma üçün təsadüfən seçilmədi, rəmzi mənası var. Bu binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən Qərbi azərbaycanlılar da qayıdacaqlar, İnşallah".

Elmi seminar iştirakçıların böyük marağına səbəb olub, məruzə ətrafında geniş müzakirələr aparılıb.[3]

---

[3] http://bsu.edu.az/az/news/bduda_elmi_seminar_qrbi_azrbaycann_tarixi_arxiv_sndlrind_